# Biz Ağdama qayıdacağıq

**Beynəlxalq Mətbuat Mərkəzində Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Ağdamın işğal gününə həsr olunmuş anım tədbiri keçirilmişdir.**

Tədbirin aparıcısı şair-jurnalist Rauf İlyasoğlu 22 il əvvəl alınmaz qala olan Ağdamın erməni quldurları tərəfindən işğal olunması səbəblərindən danışmış və vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbir iştirakçıları Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin sifarişi ilə “Xəyallarımın Ağdamı” qısametrajlı filmə ürəkağrısı ilə tamaşa etmişlər. İştirakçılar erməni faşistləri tərəfindən dağıdılmış şəhərin görüşündən təsirlənmişlər.




Şəhid Ailələrinə Sosial Dəstək İctimai Birliyinin sədri, şəhid ailəsi **Almaz Zeynalova** tədbir iştirakçılarına, şəhid ailələrinə, media nümayəndələrinə, xüsusilə Ağdam Rayon İcra Hakimiyyətinin rəhbərliyinə, ərazi nümayəndəliklərinə göstərdikləri diqqət və qayğıya görə təşəkkürünü bildirmişdir.

Almaz Zeynalova xüsusilə vurğulamışdır ki, ölkə başçısı cənab İlham Əliyev tərəfindən müharibə əlillərinin və şəhid ailələrinin sosial vəziyyəti daha da yaxşılaşdırılır, onlar mənzillə, pulsuz avtomobillə təmin olunurlar.

Qarabağ müharibəsi illərində Ağdam Rayon Mərkəzi Xəstəxanasının baş həkimi işləmiş, Mahrızlı hospitalının yaradıcısı, ATU-nun dosenti, Azərbaycanın əməkdar həkimi Taryel Eyvazov 6 mindən çox şəhid vermiş Ağdamın cəngavər igid oğullarından söhbət açmışdır. T.Eyvazov yeni təkliflər irəli sürərək hər zaman vətənimizin müdafiəsinə hazır olduğunu bildirmişdir.

Milli Qəhrəman Fred Asif İnkişaf Fondunun sədri, Qarabağ Müharibəsi veteranı Ədalət Məhərrəmov cəbhə xatirələrindən söhbət açmışdır.

DAMM-in birinci vitse-prezidenti, Sabitlik və İnkişaf Mərkəzinin sədri Rasim Məmmədovun vətənpərvər ruhlu çıxışı alqışlarla qarşılandı.

Azərbaycan Qadınlar Cəmiyyətinin sədri Bahar Qasımova 75 min qadını birləşdirən cəmiyyətin adından vətən uğrunda, torpaqlarımızın müdafiəsində igidliklə vuruşaraq şəhid olmuş soydaşlarımızın ailə üzvlərinə dərin hüznlə başsağlığı vermişdir.

Qarabağ Müharibəsi veteranı, jurnalist, Qazilər portalının təsisçisi Rey Kərimovoğlu, Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri, alovlu vətənpərvər Təhmasib Novruzov, batalyon komandiri olmuş Qələndar İsmayılov, Türkiyənin Anadolu Dövlət Universitetinin Azərbaycan üzrə rəhbəri Azər Hətəmov, Ağdam Rayon Təhsil Şöbəsinin metodisti Akif Hüseynli, rayon icra hakimiyyətinin ərazi üzrə nümayəndələri İldırım Kərimov, Həsən Mirzəlioğlu, Qarabağ müharibəsi əlili Rza Səfərli, Paraolimpiya üzrə Dünya və Avropa çempionu (Taekvando üzrə) Aynur Məmmədli və başqaları vətənpərvərlik ruhunda çıxış etmişlər.

Tədbirin sonunda Almaz Zeynalova əminliklə bildirmişdir ki, dövlətimizin düzgün siyasəti və ordumuzun günü-gündən güclənməsi nəticəsində işğal olunmuş torpaqlarımız tezliklə yağı düşmənlərdən azad olunacaq, Qarabağda doğma Ağdamda yenə də “Qarabağ şikəstəsi” səslənəcək, bayrağımız ən uca zirvələrdə dalğalancaqdır.

**Rauf ALLAHVERDİYEV,**
**“Respublika”.**